**UOT 902**
**https://doi.org/10.59849/2218-4783.2026.1.107**

# 2025-Cİ İLDƏ XARABA GİLAN ŞƏHƏR YERİNDƏ APARILMIŞ ARXEOLOJİ TƏDQİQAT

# ARCHAEOLOGICAL RESEARCH CONDUCTED AT THE KHARABA GILAN CITY SITE IN 2025

**Toğrul XƏLİLOV*, Ruhiyyə RZAYEVA*, Aysel İSMAYILOVA***

## XÜLASƏ

Xaraba Gilan şəhər yeri Naxçıvan MR-nin şərqində, Ordubad rayonu ərazisində, Gilan çayın sol sahilində, dağlıq ərazidə yerləşir. Bu abidənin Azərbaycan arxeologiyasında özünəməxsus yer tutduğunu və onun tədqiqi zamanı əldə olunmuş hər bir yeni arxeoloji materialın Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın Antik və Orta əsrlər dövrü tarixini daha dərindən öyrənmək üçün elmi əhəmiyyət daşıdığını nəzərə alaraq 2025-ci tədqiqat ilində bu abidədə arxeoloji qazıntı aparılmışdı. Məqalədə bu abidədə aparılan arxeoloji tədqiqatlar zamanı oradan aşkar olunmuş tikililərin, kitabənin, mis məmulatların, keramikaların Azərbaycan arxeologiyasında özünəməxsus yer tutduğu və mühüm elmi əhəmiyyət daşıdığı müəyyən edilmişdir.

**Açar sözlər:** *Xaraba Gilan, Orta əsr, Narınqala, Naxçıvan.*

## ABSTRACT

The Kharaba Gilan city site is located in the eastern part of the Nakhchivan Autonomous Republic, in the Ordubad district, on the left bank of the Gilan River in a mountainous area. Considering the distinctive place of this monument in Azerbaijani archaeology and the scientific significance of each new archaeological discovery obtained during its investigation for a deeper understanding of the history of Azerbaijan and its integral part Nakhchivan during the Classical and Medieval periods, archaeological excavations were conducted at this site during the 2025 research season. The article determines that the structures, inscription, copper artifacts and ceramics uncovered during these archaeological investigations occupy a unique place in Azerbaijani archaeology and hold substantial scholarly significance.

**Keywords:** Kharaba Gilan, Middle Ages, Narın Qala, Nakhchivan.

## GİRİŞ

Xaraba Gilan şəhər yeri Naxçıvan MR şərqində, Ordubad rayonu ərazisində, Gilan çayın sol sahilində, dağlıq ərazidə yerləşir. İndiyədək aparılmış arxeoloji tədqiqatlar şəhərin hələ antik dövrdən yaşayış məskəni olduğunu, Səlcuqlu dövründə yüksək inkişaf etdiyini, monqolların hücumu zamanı güclü dağıntıya məruz qaldığını sübut etmişdir. Xaraba Gilan şəhər yerinin Azərbaycan arxeo-

* AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti. e-mail: x.toqrul@gmail.com
ORCİD: 0000-0002-3703-8315
* AMEA Naxçıvan Bölməsi, e-mail: Rzayeva.ruhiyye.0011@gmail.com
ORCİD: 0009-0003-2663-3877
* Naxçıvan Dövlət Universiteti, e-mail: aysel_ismayi@mail.ru
ORCİD: 0009-0001-7855-5722

logiyasında özünəməxsus yer tutduğunu, onun tədqiqi zamanı əldə olunmuş hər bir yeni arxeoloji materialların Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın Antik və Orta əsrlər dövrü tarixini daha dərindən öyrənmək üçün elmi əhəmiyyət daşıdığını nəzərə alaraq, şəhər yerinin indiyədək arxeoloji cəhətdən tədqiq olunmamış hissəsində arxeoloji qazıntı aparılmışdır. Qazıntının əsas məqsədi şəhər yerinin tarixini və maddi mədəniyyətini ətraflı şəkildə kompleks şəkildə öyrənməkdir.

## XARABA GİLAN ŞƏHƏR YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR

Xaraba Gilan şəhər yerinin arxeoloji tədqiqi tarixi XIX əsrin sonlarından başlamışdır. 1896-cı ildə Xaraba Gilan ərazisində tədqiqatlar aparan arxeoloq Karl Dumberq burada aşkar etdiyi, üzərində ərəb dilində yazılar olan iki daş lövhəni Qafqaz Muzeyinə (hazırda Gürcüstan Milli Muzeyi) təhvil vermişdir. 1926-cı ildə V.M.Sısoyev tərəfindən Xaraba Gilan şəhər yerində sınaq xarakterli arxeoloji qazıntılara başlanılmış, bu işlər zamanı ərazidə bir neçə qəbir açılaraq tədqiq edilmişdir. Yaşayış yerində sistemli arxeoloji qazıntılar isə 1976-cı ildə Naxçıvan Arxeoloji Ekspedisiyası çərçivəsində V.Q.Əliyevin rəhbərlik etdiyi Xaraba Gilan dəstəsi tərəfindən həyata keçirilmişdir. Aparılan qazıntılar nəticəsində Kiran karvansarası aşkar edilmiş və tikilinin şimal hissəsi təmizlənmişdir. 1980-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutu tərəfindən təşkil edilən, Q.M.Aslanovun rəhbərlik etdiyi Xaraba Gilan ekspedisiyası şəhər ərazisində arxeoloji qazıntı işlərini davam etdirmişdir [İbrahimov, 2000, s. 17-21]. Müstəqillik dövründə Xaraba Gilan yaşayış yerində aparılan arxeoloji qazıntılar Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutu nəzdində fəaliyyət göstərən Xaraba Gilan Arxeoloji Ekspedisiyası tərəfindən, Bəhlul İbrahimlinin rəhbərliyi ilə davam etdirilmişdir. 2015 və 2016-cı illərdə yaşayış yerinin mərkəzində iki müxtəlif sahədə arxeoloji qazıntılar aparılmışdır [İbrahimli və b., 2017, s. 275-282]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "2023-2027-ci illərdə Naxçıvanın sosial-iqtisadi inkişafı"na dair sərəncamından sonra, 2024-cü ildə Xaraba Gilan şəhər yeri və onun ətrafındakı abidələrdə Bəhlul İbrahimlinin rəhbərliyi ilə arxeoloji qazıntı işləri davam etdirilmişdir. Müxtəlif dövrlərdə Xaraba Gilan şəhər yerində və Naxçıvanın digər arxeoloji yaşayış yerlərində aparılmış tədqiqatlar nəticəsində əldə edilmiş tapıntıların Azərbaycan arxeologiyası baxımından özünəməxsus və yüksək elmi dəyərə malik olduğu nəzərə alınaraq, 2025-ci ildə Xaraba Gilan şəhər yerində AMEA Naxçıvan Bölməsi tərəfindən arxeoloji ekspedisiya təşkil edilmişdir. Tərəfimizdən aparılan arxeoloji qazıntı Narınqala ilə və şəhristan arasında dəniz səviyyəsindən 880 m yüksəklikdə, 38°56'31" Şm, 45°50'59" Şərq koordinatlarında, 180 kv.m. sahədə həyata keçirilmişdir. Qazıntı sahəsi təmizlənərkən onun üzərindəki şirli və şirsiz keramikalar toplanılmışdır. Sonra qazıntı sahəsi A, B, C kvadratlarına bölünmüşdür.

A1 kvadratında aparılan arxeoloji qazıntı zamanı 30-50 sm dərinlikdə uçulub tökülmüş daş-torpağın altından divar qalıqları aşkar edildi. Divar şərq-qərb istiqamətində olub, qövs şəklində şimala tərəf davam edirdi. Divarın ətrafı təmizlənərkən oradan boz rəngli keramika fraqmentləri, heyvan sümükləri, möhrə, bişmiş və çiy kərpicin qalıqları (ölçüləri 28×28 sm, 30×30 sm), gəc suvağın izləri aşkar olundu. Keramika fraqmentlərindən biri üzərində cızma üsulu ilə həndəsi naxış çəkilmiş qulp qırığından ibarət idi, digərləri gil qabın ağız kənarına aid idi. Qazıntı işi davam etdirilərkən qazıntı sahəsində hündürlüyü 110 sm, uzunluğu 310 sm olan divarın qalan hissəsi də aşkar olundu. Müəyyən edildi ki, bu divar kontrofors çıxıntılı formadadır. Onun çıxıntılı hisəsinin eni 93 sm-dir. Üzərində diametri 14x16 sm olan ağac tirin bir hissəsi (baş hissəsi) (şəkil 1, 1) və bu tikilinin bir neçə dəfə bərpa edildiyini sübut edən fakt kəç və saman qarışıq möhrə qalığı aşkar olundu (şəkil 1, 2) Tədqiqat işini davam etdirərkən A2 kvadratında bu divarın qalan hissəsi də aşkar edildi. Daşla hörülmüş qövs şəklində şimala tərəf davam edən divarın 8 m olan hissəsində xarici tərəfdən arası gəclə suvanmış digər divar qalığı (uzunluğu 65 sm, hündürlüyü 52 sm) da qeydə alındı (şəkil 1, 3).



1 2 3 4

**Şəkil 1.**

Tədqiqatın davam etdirilməsi nəticəsində A3 kvadratında daşla hörülmüş uzunluğu 135 sm olan divar, divarın yanında, künc hissədə isə ocaq aşkar olundu. Müəyyən edildi ki, ocaq yeri 145×245 sm ölçüsündədir. Onun ətrafı daş və möhrə ilə hörülmüşdür. Ocağın od qalanan hissəsinin yaxınlığında 80×60 sm ölçüsündə dörd ədəd daş kvadrat şəklində qoyulmuşdu. Ocağın içərisindən xırdabuynuzlu heyvan sümüyünün qalıqları (şəkil 2, 4), şirsiz keramika parçaları, yanmış odun kömürünün qalığı, ocağın ətrafından isə möhrə qalığı, şirsiz keramika parçaları aşkar edildi.

A kvadratında olduğu kimi B kvadratı da B1, B2 və B3 kvadratlarına bölünərək arxeoloji tədqiqatlar aparıldı. Arxeoloji tədqiqatlar B1 kvadratından davam etdirildi. Aparılan arxeoloji qazıntı zamanı 50 sm dərinlikdən sonra üzəri gəc məhlulu ilə suvanmış tikilinin izlərini müşahidə etdik. Bu tikili divara bitişik şəkildə inşa olunmuşdur. Tədqiqatların davam etdirilməsi zamanı müəyyən edildi ki, tikili dördkünc formada, fasadı arko şəklindədir. Onun eni 150 sm, hündürlüyü 120 sm-dir. Tikilinin çatmatağ formalı fasadının eni 67 sm, hündürlüyü 86 sm-dir. Bu tikili alaqapının divarına bitişik inşa olunmuşdur. Onun üzəri gillə suvanmış, gəcdən karniz formalı çıxıntılarla bəzədilmişdir. Arxeoloji tədqiqatın davam etdirilməsi zamanı onun içərisində gildən insanların ərzaq və digər qida ehtiyatlarını saxlamaq üçün düzəltdiyi başqa bir tikili də aşkar edildi. Onun dərinliyi 50 sm, ağzının diametri 22×19 sm-dir (şəkil 2). Bu tikilinin təyinatını araşdırarkən məlum olur ki, Azərbaycanın digər yerlərində hələlik bu günə kimi bu tip tikili qeydə alınmamışdır. Lakin, abidənin yaxınlığındakı Sabir Dizə, Baş Dizə və Kələntər Dizə kəndlərinin sakinlərindən topladığımız etnoqrafik məlumatlardan məlum olmuşdur ki, bu kəndlərin insanları son dövrlərə qədər belə tikililərdən “soyuducu” kimi istifadə etmişlər. Ona görə də, ehtimal etmək olar ki, bu tikilidən şəhərin qala qapısını qoruyan mühafizəçilər isti havalarda ərzaq və digər qida məhsullarını sərin saxlamaq üçün “soyuducu” kimi istifadə etmişlər.



**Şəkil 2.**

B1 kvadratında aparılan arxeoloji tədqiqatların B2 kvadratına doğru davam etdirilməsi zamanı B1 kvadratındakı daş divarın B2 kvadratına doğru uzanan qalan hissəsi 50 sm uzunluğunda aşkar edildi. Müəyyən edildi ki, A1 kvadratları ilə B1 kvadratları arasındakı hissə şəhristana və Narınqalaya gedən 216 sm enində yoldur. Bu hissədə arxeoloji tədqiqatların davam etdirilməsi nəticəsində müəyyən edildi ki, divarların tikinti quruluşuna görə giriş yolunun eni abidənin içərisinə doğru getdikcə müxtəlif ölçülərdə dəyişir. B2 kvadratında aparılan arxeoloji qazıntılar zamanı şirli və şirsiz keramika parçaları ilə yanaşı Naxçıvanın Orta əsrlər dövrü tarixini öyrənmək üçün elmi əhəmiyyət daşıyan bir ədəd uzunluğu 100 sm, qalınlığı 50 sm olan daş kitabə aşkar edildi. Abidədən aşkar olunmuş daş kitabə ilə bağlı aparılan ilkin araşdırma zamanı müəyyən edilmişdir ki, kitabənin üzəri ərəb əlifbasının nəstəliq xətti ilə yazılmışdır (şəkil 3). Daşın üzərindəki yazının tam oxunması üçün epiqraflara təqdim edilmişdir. Kitabənin epiqraflar tərəfindən daha dəqiq oxunmasından sonra Naxçıvanın, xüsusən də Gilan şəhərinin Orta əsrlər dövrü tarixinə aid yeni elmi biliklər əldə etmək mümkün olacaqdır.



**Şəkil 3.**

Arxeoloji tədqiqatların B3 kvadratına doğru davam etdirilməsi nəticəsində Narınqalaya və şəhristana gedən 278 sm enində olan yolun digər hissəsi də aşkar edildi. Müəyyən edildi ki, 278 sm-dən sonra C 3 kvadratına doğru olan hissədə giriş yolu daha da enlənir. B3 kvadratında aparılan arxeoloji qazıntı zamanı 140 sm enində daş divarın 100 sm hissəsi də aşkar olundu. Müəyyən edildi ki, bu divardan qazıntı sahəsinin içərisinə A3 kvadratındakı ocağın altına doğru işlənmiş 220 sm uzunluğunda başqa bir divar da vardır. Bu divardan 20 sm aralıda eni 65 sm, uzunluğu 166 sm olan başqa bir divar da aşkar edildi. Bu divarın C3 kvadratındakı divarla kəsişdiyi künc hissədə kül qatı aşkar edildi. Kül qatı təmizləndikdən sonra onun ocaq yeri olduğu müəyyən edildi. Ocaqdan yanmış odun kömürü, küllü torpaq, xırdabuynuzlu heyvan sümükləri, sıxılaraq qırılmış bir ədəd boz rəngli gil qab aşkar edildi. Həmin hissədə qazıntı işinin davam etdirilməsi nəticəsində ondan 20 sm aşağıda sıxılaraq qırılmış göy şirli gil qab (şəkil 4, 1), bu qabdan 15 sm aşağıda isə bir ədəd boz rəngli silindrik gövdəli piyalə tipli gil qabın gövdə hissəsi və qırıqları (şəkil 4, 2), ondan 20 sm aşağıda isə eyni formalı boz rəngli silindrik gövdəli piyalə tipli bütöv gil qab aşkar edildi (şəkil 4, 3). Bu qabın yalnız ağzının bəzi hissələri qırılmışdı.




**Şəkil 4.**

B3 kvadratında aparılan arxeoloji qazıntı zamanı xeyli miqdarda mis və metal məmulatlar (şəkil 5), xırdabuynuzlu və iribuynuzlu heyvan sümükləri, şirli və şirsiz keramika məmulatı (şəkil 6) aşkar edildi. Abidədən aşkar olunmuş iki ədəd mis sikkənin üzəri latın hərifləri ilə, digərlərinin üzəri isə ərəb əlifbası ilə yazılmışdı. Onlar güclü eroziyaya uğradığına görə, üzərlərindəki yazıları oxumaq bir qədər çətindir. Ancaq, apardığımız ilkin araşdırmalar onu qeyd etməyə əsas verir ki, üzərində latın həriflərinə bənzər yazı olan mis sikkələrin bənzərləri Bizans dövlətində istifadə edilmişdir [Rzayev R., Seyidov A. & Quliyev A., 2019, s. 118]. Digər miss sikkələrin bənzərləri Orta əsrlər dövründə ayrı-ayrı dövlətlərdə istifadə edilmişdir [Сейфеддини, 1978, s. 245-262; Пиркулиева, 2007, s. 70-74].



1 2

**Şəkil 5.**

Aşkar olunan keramika məmulatlarının içərisində deşilərək metal məftillər keçirilmiş şirli və şirsiz keramika məmulatlarının aşkar olunması maraqlı artefaktlardan olmuş, abidənin dövrünün müəyyənləşdirilməsinə kömək etmişdir (şəkil 6, 11, 12). Aparılan müqayisəli araşdırmalardan məlum olur ki, XIII əsrdə monqolların Gilan şəhərinə etdiyi dağıdıcı basqın bütün sahələr kimi dulusçuluğa da güclü təsir göstərmiş, dulusçuluqda durğunluq yaranmışdır. Buna görə də. insanlar gil qablara olan tələbatlarını ödəmək üçün qırılmış qabları bir-birinə dəmir məftillərlə bərkitmiş, sonra həmin hissəni gil palçıqla örtmüşlər.



**Şəkil 6.**

Abidədən aşkar olunan keramika məmulatları ilə bağlı aparılan müqayisəli araşdırma zamanı məlum olmuşdur ki, şirsiz və şirli keramikaların arasında hazırlanma texnologiyasına görə oxşarlıqlar olmaqla yanaşı, müəyyən fərqli cəhətlər də var (şəkil 6). Şirli keramikalar şirsizlərin istehsalı üçün zəruri olan texnoloji proseslərin hamısını təkrarlamaqla yanaşı anqobun, şirin və rəngin hazırlanması, qabların müvafiq üsullarla naxışlanması kimi bir sıra əlavə texnoloji prosesləri də əhatə etmişdir. Hər bir qrupa daxil olan qablar texniki xüsusiyyətlərinə və bədii işlənməsinə görə də müxtəlif çalarlara malik olmuşdur. Şirlə əsas etibarilə süfrə qabları örtülübdür. Açıq formaya malik

qablar əsasən içəridən, içərisi görünməyən qablar isə çöldən şirlənmişdir. Bəzi iri boğazlı qablar isə hər iki tərəfdən şirlə örtülmüşdür. Bədii şirli qabların əsas kütləsini kasalar, boşqablar təşkil etmişdir. Şirli qabların hazırlanmasında, xüsusilə onların bədii işləməsində istifadə olunan bir çox texniki üsullar, həndəsi, nəbati, ornamentlər həmin dövrdə Orta və Yaxın Şərq ölkələri, həmçinin Cənubi Qafqaz üçün ümumi olmuşdur. İstər şirli, istərsə də şirsiz gil qabların bənzərləri Naxçıvanla yanaşı olaraq Azərbaycanın digər ərazilərində də xeyli miqdarda aşkar edilmişdir Beyləqandan [Минкевич-Мустафаев 1965, s. 149-160; İbrahimov, 1965, s. 212-219], Gəncədən [Джафарзаде, 1949, s. 134], Qəbələdən [İsmizade, 1962, s. 54-57; Cəbiyev, Ramazanov & Hüseynova, 1991, s. 28-29], Şabrandan [Dostiyev, 2001, s. 144-145] və digər yerlərdən (Cəbiyev, 2003, s. 33-35) aşkar olunmuş keramika məmulatlarını nümunə göstərmək olar.

A və B kvadratları kimi C kvadratı da C1, C 2, və C 3 kvadratlarına bölündükdən sonra arxeoloji qazıntı aparılmışdır. Qazıntı hər üç kvadratlarda xam torpağa çatana qədər davam etdirildi. Tədqiqat zamanı bu kvadratda iki dördkünc formalı tikili aşkar edildi. Onlar arasındakı arakəsmə divarın eni 280 sm, 300 sm-dir. Bu otaqların digər divarları isə nisbətən ensizdir (67 sm). C 2 kvadratındakı otaqla C1 kvadratındakı otaqların arasında qərb tərəfdə 73 sm enində qapı yeri vardır. C2 kvadratının giriş hissəsində 57 sm diametrində dairəvi formalı, ətrafına daş düzülmüş təndir aşkar edildi.



**Şəkil 7.**

## NƏTİCƏ

2025-ci tədqiqat ilində Xaraba Gilan şəhər yerində aşkar olunmuş arxeoloji materialların hər biri Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın Orta əsrlər dövrü tarixini dərindən öyrənmək üçün mühüm elmi əhəmiyyət daşıyır. İlk dəfə olaraq Xaraba Gilan şəhərində Şəhristana və Narınqalaya gedən əsas giriş yolunun, qala qapısını qoruyan mühafizəçilərin qaldığı otaqların, qala qapısını qoruyan mühafizəçilərin ərzaq və digər qida məhsullarını saxlamaq üçün tikdiyi tikilinin, daş kitabənin, mis sikkələrin və s. aşkar olunması Azərbaycan arxeologiyasında özünəməxsus yer tutan mühüm elmi yeniliklərdəndir. Abidədən aşkar olunmuş keramika məmulatlarının tədqiqi nəticəsində müəyyən edilmişdir ki, istər şirli, istərsə də şirsiz qabların düzəldilməsində dulusçuların sənətkarlıq qabiliyyəti, bacarıq və vərdişləri mühüm yer tutmuşdur. Onların hamısı eyni dulusçu emalatxanasının məhsulu olmamış, ayrı-ayrı dulusçular tərəfindən düzəldilmişdir. Qabların üzərinin müxtəlif ornamentlərlə naxışlanmasında dulusçuların sənətkarlıq qabiliyyəti ilə yanaşı, bədii-estetik düşüncə tərzi, dini-ideoloji görüşləri mühüm yer tutmuşdur. Onların bəziləri Cənubi Qafqazın, Şərqi

Anadolunun, Urmiya hövzəsinin qabları ilə oxşarlıq təşkil etsə də, bir çoxu yerli dulusçuluq məhsulu olduğu üçün müəyyən lokal xüsusiyyətlərinə görə onlardan fərqlənir.

## ƏDƏBİYYAT

Cəbiyev, Q.C., Ramazanov, H.X. & Hüseynova, S.B. (1991). 1990-cı ildə Qəbələ şəhər yerində aparılmış arxeoloji qazıntıların nəticələri haqqında. *Azərbaycanın maddi mədəniyyət tarixinə dair 1990-cı ildə aparılmış çöl tədqiqatlarının yekunlarına həsr olunmuş elmi konfransın məruzələrinin tezisləri*. Elm.

Cəbiyev, Q.C. (2003). *Azərbaycan keramikası (XIV-XVII əsrlər)*. Elm.

Dostiyev, T.M. (2001). *Şimal-Şərqi Azərbaycan XI-XV əsrlərdə*. BDU nəşriyyatı.

Джафарзаде, И.М. (1949). *Историко-археологический очерк Старой Гянджи*. Изд. АН Аз. ССР.

İbrahimov, F.Ə. (1965). Örənqalada yeni quruluşlu dulus küpəsi. *AMM,* VI, 212-219.

Ибрагимов, Б.И. (2000). *Средневековый город Киран.* Баку-Москва.

İbrahimli, B.İ., Səfərli, F.Y., Xəlilov, T.F. & İbrahimova, C.F. (2017). Xaraba Gilan Orta əsr şəhər yerinin I məhəlləsində 2015-2016-cı illərdə aparılmış arxeoloji tədqiqatlar. *Azərbaycanda arxeoloji tədqiqatlar – 2015-2016*, 275-281.

Исмизаде, О. (1962). Кабала – столица древней Кавказской Албании. *Вопросы истории Кавказской Албании*, 54-75. Издательство АН Аз. ССР.

Минкевич-Мустафаев Г.М. (1965). Некоторые итоги изучения ремеслнного квартала Байлакана. *Археологические исследования в Азербайджане*, 149-160. Наука.

Пиркулиева, Г. (2007). *Медные монеты Азербайджана.* МВМ.

Rzayev, R., Seyidov, A. & Quliyev A. (2019). *Antik və Orta əsrlərin metal pulları.* https://mek.org.az/e-kitabxana /kitab.php?id=29076

Сейфеддини, М.А. (1978). *Монетное дело и денежное обращение в Азербайджане XIII-XIV вв.* Элм.

*(Tarix elmləri doktoru, professor Abbas Seyidov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 26.01.2026**
**Son variant 20.02.2026**